COP29
Baku
Azerbaijan

# COP29 Yaşıl Zona
## Media Akkreditasiyası qaydaları



Bu sənəd media nümayəndələrinin COP29 Yaşıl Zonasına girişini ədalət və effektivlik prinsipləri əsasında təmin edilməsi üçün akkreditasiya meyarları, müraciət prosesi və şərtləri əks etdirir.

## Media akkreditasiyasının müddəti

COP29 Yaşıl Zona üzrə media akkreditasiya prosesi 9 oktyabr 2024-cü il tarixində başlayacaq və 30 oktyabr 2024-cü il tarixində saat 23:00-da (GMT+4) başa çatacaq. Media akkreditasiyası üzrə bütün müraciətlər COP29 Azərbaycan Əməliyyat Şirkəti (COP29 Azərbaycan ƏŞ) tərəfindən təsdiqlənməlidir.

## Akkreditasiya meyarları

Media Akkreditasiyası Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən tanınan ölkələrdə media təşkilatı kimi qeydiyyatdan keçmiş rəsmi və etibarlı media qurumunu təmsil edən media nümayəndələri üçün nəzərdə tutulub. Yerli media nümayəndələri, həmçinin Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin reyestrində qeydiyyatda olmalıdırlar.

Akkreditasiya yalnız aşağıdakı meyarlara cavab verən nəşrlərin/xəbər agentliklərinin redaksiya heyətinə, eləcə də fotomüxbir, televiziya və radio işçilərinə verilə bilər:

- **Məzmun təqdim edən media qurumları** ən azı 6 ay davamlı fəaliyyət göstərməlidir;
- **Çap mediası (qəzet, dövri nəşr və jurnallar):** il ərzində ən azı 6 dəfə dərc edilməli, nəşrlər ictimaiyyət üçün əlçatan olmalı və nəşriyyat fəaliyyəti göstərən müəssisə və ya təşkilat tərəfindən hazırlanmalıdır;
- **Vebsaytlar** təsdiqlənə bilən fiziki ünvanı və telefon nömrəsi, eləcə də geniş auditoriyası olan tanınmış media təşkilatına məxsus olmalı, mütəmadi qaydada müvafiq məzmun dərc etməli və iqlim dəyişmələri üzrə xəbərlər də daxil olmaqla orijinal xəbər məzmununu ehtiva etməlidir;
- **Fotoqraf** və **videoqraflar** da daxil olmaqla, **müstəqil jurnalistlər** müəyyən xəbər agentliyi və ya nəşriyyat tərəfindən xidməti ezamiyyətə göndərildiklərini əsaslandıra bilməlidirlər;
- **Yayım mediası (Televiziya və ya radio)** ictimai xəbər və məlumatları peyk və ya yerüstü qurğular vasitəsilə yayımlamalıdır.

Müraciət edən bütün şəxslər müəyyən xəbər agentliyi və ya nəşriyyat tərəfindən xidməti ezamiyyətə göndərildiklərini əsaslandıra bilməlidirlər.

## Akkreditasiya prosedurları

- Media akkreditasiyası üzrə bütün müraciətlər Media akkreditasiya portalı vasitəsilə onlayn şəkildə təqdim edilməlidir;
- Akkreditasiya üçün onlayn formanı təqdim etdikdən sonra media nümayəndələri e-poçt üzərindən müraciətin tamamlanması haqqında təsdiq məktubu alacaqlar;
- Müraciətlərə iki həftə ərzində baxılacaq. COP29 Azərbaycan ƏŞ natamam və ya müəyyən edilmiş meyarlara cavab verməyən istənilən müraciəti rədd etmək hüququna malikdir;
- Akkreditasiya jurnalist, müxbir, fotoqraf və digər KİV nümayəndələrinin COP29 Yaşıl Zonada keçiriləcək bütün tədbirlərdə iştirakına zəmanət vermir. Bu barədə daha ətraflı məlumat üçün Media akkreditasiya komandasına müraciət edə bilərsiniz.
- Media nümayəndələrinin akkreditasiya kartı başqasına ötürülə, verilə və ya onun adından istifadə edilə bilməz;
- Nümayəndə(lər) siyahısında hər hansı bir dəyişiklik edilərsə, bu barədə COP29 Media akkreditasiya komandasına mümkün qədər tez məlumat verilməlidir;
- Media akkreditasiya kartı konfrans müddəti ərzində etibarlıdır və tədbirin keçirildiyi məkanda hər zaman görünən şəkildə taxılmalıdır;
- Media akkreditasiyası üçün müraciət edən şəxslərə akkreditasiyanın statusu, o cümlədən uğursuz nəticələrlə bağlı e-poçt ünvanına məktub göndəriləcək.

## Müraciətin təqdim edilməsi

COP29 Yaşıl Zonada iştirak üçün akkreditasiya almaq istəyən media nümayəndələri gzmediaaccreditation.cop29.az linkinə keçid edərək, müraciətlərini rəsmi COP29 portalı vasitəsilə təqdim etməlidirlər.

Daha ətraflı məlumat əldə etmək, eləcə də sizi maraqlandıran suallara cavab almaq üçün **Yaşıl Zona üçün media akkreditasiyası üzrə təlimat** və **Tez-tez verilən suallar** bölümünə müraciət edə bilərsiniz.

## Tələb olunan sənədlər

Akkreditasiya müraciətinə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- Xidməti ezamiyyət məktubu*
- Jurnalist vəsiqəsinin surəti
- Pasport (xarici vətəndaşlar) və ya şəxsiyyət vəsiqəsinin (Azərbaycan vətəndaşları) surəti
- Pasport ölçülü fotoşəkil (3x4 sm)
- Media Reyestri şəhadətnaməsi (yalnız yerli media nümayəndələri)

*Xidməti ezamiyyət məktubu akkreditasiya almaq istəyən media qurumunun rəsmi blankında yazılmalı, COP29 Azərbaycan ƏŞ-nə ünvanlanmalı və üzərində media nümayəndəsinin adı, vəzifəsi və ezamiyyət müddəti göstərilməklə, media qurumunun səlahiyyətli şəxsi (məs.: rəhbər, baş redaktor və ya naşir) tərəfindən imzalanmalıdır.

**Qeyd:** Skan edilmiş sənədlər media akkreditasiya portalı vasitəsilə .pdf, .gif, .jpg və ya .png formatında onlayn qeydiyyat sisteminə yüklənməlidir. Akkreditasiya tələblərinə uyğun sənədlər yüklənmədiyi təqdirdə müraciətə baxılmayacaqdır.

## Yaşıl Zona üzrə akkreditasiya kartının verilməsi

Media nümayəndələri çap olunmuş yaxa kartlarını 20 oktyabr 2024 cü il tarixindən etibarən Milli Gimnastika Arenasında yerləşən Uniforma və Akkreditasiya Mərkəzindən (UDAC) müraciət formasında istifadə etdiyiniz etibarlı pasport və ya şəxsiyyət vəsiqəsini təqdim etməklə əldə edə bilərlər. Mərkəz hər gün saat 09:00-dan 18:00-dək fəaliyyət göstərəcək.

## İtirilmiş və tapılmış əşyalar

**İtirilmiş yaxa kartları:**

COP29 zamanı akkreditasiya yaxa kartını itirən media nümayəndələri bu barədə dərhal Məkanın akkreditasiya üzrə dəstək ofisinə (VAHO) məlumat verməlidirlər. İcazəsiz istifadənin qarşısını almaq üçün itmiş yaxa kartları deaktiv ediləcək. Yeni akkreditasiya kartı müvafiq sənəd və ya pasportun düzgünlüyü doğrulandıqdan sonra veriləcək.

**Tapılmış yaxa kartları:**

Tapılmış hər hansı bir yaxa kartı dərhal ən yaxın akkreditasiya mərkəzinə və ya VAHO-ya təhvil verilməlidir.

**Qeyd:** Media numayəndələri akkreditasiya ilə bağlı hər hansı bir problemlə qarşılaşarsa, VAHO-ya yaxınlaşa bilərlər. VAHO Bakı Stadionunda yerləşən Yaşıl Zonanın girişində fəaliyyət göstərəcək.

Müraciətinizlə bağlı əlavə sualınız olarsa, mediaaccreditation@cop29.az e-poçt ünvanı ilə əlaqə saxlaya bilərsiniz.

COP29
Baku
Azerbaijan